AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Bolqarıstanın Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı seçilib

Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Bolqarıstanın Veliko Tırnovo şəhərinin fəxri vətəndaşı seçilib.



Bu barədə Veliko Tırnovo icmasının saytında yerləşdirilmiş məlumatda deyilir.

Şəhər meri Daniel Panovun Azərbaycanın birinci xanımının fəxri vətəndaş seçilməsi haqqında təklifi avqustun 25-də keçirilən təntənəli iclasda yekdilliklə qəbul edilib.

Birinci xanım Mehriban Əliyevaya fəxri vətəndaş adı Veliko Tırnovo şəhərinin mədəni irsinin qorunması və təşviqi işinə böyük töhfəsi və iştirakına görə verilib.

Ötən ilin mayında Sofiyada "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun konservasiyası və bərpası, texniki infrastrukturunun inşası və təmiri haqqında saziş imzalanıb.

Bu saziş çərçivəsində birinci xanım Mehriban Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu tarixi abidədə 150 metr uzunluğunda qərb divarının konservasiyası və bərpasını, 700 metr uzunluğunda turist xiyabanının inşasını, mədəniyyət mərkəzinin yaradılmasını və təchiz olunmasını, ərazidəki üç kilsənin təmiri və bərpasını, qoruğa gələn qonaqlar üçün nəqliyyat infrastrukturunun yaradılmasını həyata keçirib.

***AZƏRTAC***